# Cənub Qaz Dəhlizi yeni imkanlar, yeni üfüqlər açır

## *Dövlət başçısı cənab İlham Əliyev enerji siyasətinin inkişafında 2018-ci ilin böyük önəmi olduğunu vurğulayıb*

**Bu gün həyata keçirilən Cənub Qaz Dəhlizi bölgədə ən böyük infrastruktur layihələrindən biridir. Bu layihə Avrasiyanın enerji xəritəsini dəyişəcək. Bu layihə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi, mənbələrin və marşrutların şaxələndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Həmçinin, Balkan ölkələrinin təbii qaza olan tələbatının böyük hissəsi ödənəcək. Bu boru kəmərləri xəttinin əsas qaz mənbəyi "Şahdəniz" yatağıdır.**

Azərbaycanın enerji siyasətinin əhəmiyyətini vurğulayan cənab İlham Əliyev bildirib ki, 2018-ci il bizim enerji siyasətimizin inkişafı üçün önəmli il olmuşdur: "Bu ilin may ayında biz Bakıda Cənub Qaz Dəhlizinin rəsmi açılışını qeyd etdik. Bu, tarixi hadisədir. Ondan bir ay sonra Türkiyədə TANAP layihəsinin açılışını qeyd etdik və Cənub Qaz Dəhlizi layihəsi uğurla icra edilir. Bütün bu dörd layihənin hamısında çox gözəl nəticələr var. Bu il biz qaz hasilatımızı artıracağıq, artıq "Şahdəniz-2"dən qaz gəlir. Gələn il, ondan sonrakı illərdə daha da artacaq. Yəni biz tam hədəfə çatmaq üçün bütün işləri görürük və mənə verilən məlumatlara görə, Cənub Qaz Dəhlizinin son hissəsi olan TAP layihəsinin icrası ilə bağlı da heç bir problem yoxdur".

Məlumat üçün bildirək ki, Cənubi Qafqaz Boru Kəməri (CQBK) 2006-cı ildən Azərbaycan və Gürcüstanı, 2007-ci ilin iyul ayından isə Türkiyəni "Şahdəniz" (mərhələ-1) qazı ilə fasiləsiz təmin edir. Cənub Qaz Dəhlizi yaradılarkən kəmərin genişləndirilməsi zərurəti meydana gəldi və bu layihə artıq başa çatdırılmışdır. Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi layihəsi Azərbaycan və Gürcüstan ərazilərindən keçən 48 düyüm diametrlik yeni boru kəmərinin və həmçinin Gürcüstan ərazisində 2 ədəd yeni kompressor stansiyasının inşasını əhatə etmişdir. Bununla boru kəmərinin ötürmə qabiliyyəti 23,4 milyard kubmetrə çatdırılmış və qaz nəqlinin ümumi həcmi 3 dəfə artırılmışdır. Genişləndirilmiş CQBK-nin Gürcüstan-Türkiyə sərhədində qoşulduğu TANAP (Trans-Anadolu qaz boru kəməri) Türkiyə dövlətinin bütün ərazisi boyunca uzanaraq daşınan qazı qardaş ölkənin şərqindən qərbinə nəql edən ilk boru kəməri sistemidir.

Azərbaycanın və Türkiyənin birgə səyləri sayəsində Cənub Qaz Dəhlizinin önəmli seqmentinin — TANAP-ın istifadəyə verilməsi bütün regionun, eyni zamanda Avropanın enerji təhlükəsizliyi perspektivlərinin genişlənməsinə xidmət edir. Bu, rəsmi Bakı ilə Ankara arasındakı qarşılıqlı etimada əsaslanan münasibətlərin müsbət nəticəsidir. Digər tərəfdən istehsalçı, tranzit və istehlakçı ölkələrlə şirkətlər arasındakı uzlaşma və qarşılıqlı anlaşma birliyi prosesin sürətləndirilmısinə töhfə verib. Bu baxımdan TANAP eyni zamanda çoxtərəfli əməkdaşlığın yeni nümunəsidir.

Cənub Qaz Dəhlizi dünyada çox böyük əks-səda yaradan layihədir. Avropanın enerji baxımından vacib region olduğunu bəyan edən Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviç bildirib ki, enerji tranziti də bizim üçün əhəmiyyətlidir və qaz bu baxımdan xüsusi əhəmiyyət daşıyır: "Məhz buna görə Azərbaycan, eləcə də Xəzər regionu Avropa İttifaqı üçün vacib tərəfdaşlardandır. Azərbaycan Cənub Qaz Dəhlizinin əsas təchizatçısıdır. Bu layihənin reallaşdırılması ilə Avropanın enerji balansı şaxələndiriləcək, biz iqlim dəyişikliyi ilə bağlı əsas hədəflərə çatacağıq və ümumilikdə geosiyasi mühit dəyişəcək. Birgə səylərimizlə biz 2020-ci ildə Azərbaycan təbii qazını Avropaya nəql etməyə müvəffəq olacağıq. Bu, tarixi hadisə olacaq".

Cənub Qaz Dəhlizi Avropa İttifaqının bütün maraqlarına uyğun layihədir və Aİ-nin strateji layihələri sırasındadır. Cənun Qaz Dəhlizi qitəsində dekarbonizasiyaya və enerji səmərəliliyinə öz töhfəsini verəcək, — deyə Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti bildirib.

Yəni bu, onu göstərir ki, Cənub Qaz Dəhlizi çox mühüm və qlobal əhəmiyyətli strateji layihələrdən biridir. Bu layihənin çox önəmli seqmenti — TANAP Türkiyənin əsas qitələrarası enerji düyününə çevrilməsində müstəsna əhəmiyyət daşıyır. TANAP həm də SOCAR üçün böyük önəm daşıyan layihədir. Şirkət məhz bu beynəlxalq layihədə ən böyük iştirak payına malik olmuş və lider rolunu öz üzərinə götürmüş, işin öhdəsindən layiqincə gəlmişdir. Kəmərin inşası prosesində qazanılmış nailiyyətlər göstərdi ki, SOCAR artıq xaricdə də böyük və məsul layihələri vaxtında və yüksək səmərə ilə həyata keçirməyə qadirdir. Daha bir faktı diqqətə çatdıraq ki, ilkin qiymətləndirmə zamanı layihənin dəyəri 11 milyard dollardan çox hesablanmışdısa, sonradan görülən səmərələşdirmə tədbirləri nəticəsində bu rəqəmi 8 milyarddan aşağı salmaq mümkün olmuşdur. TANAP layihəsi iki mərhələdə həyata keçirilmişdir. İlk mərhələdə təbii qazın Türkiyə ərazisinə çatdırılması və ölkə bazarına daxil edilməsi, ikinci mərhələdə isə Avropa Birliyi sərhədinə qədər nəqli hədəf götürülürdü. Bu il birinci mərhələ uğurla həyata keçirildi. İyunun 12-də Eskişehirdə Azərbaycan və Türkiyə dövlət başçılarının, eləcə də Ukrayna, Serbiya və Şimali Kipr Türk Cümhuriyyəti prezidentlərinin iştirakı ilə TANAP-ın açılış mərasimi oldu. İyunun 30-dan "Şahdəniz-2" çərçivəsində hasil olunan təbii qazın bu kəmər vasitəsilə kommersiya məqsədilə Türkiyəyə nəql edilməsinə başlanıldı. Gələn ilin sonunadək boru kəmərinin Avropa Birliyi sərhədinə qədər olan hissəsi tamamlanacaqdır.

Beləliklə, 2020-ci ilin əvvəlində Trans-Adriatik qaz boru kəməri (TAP) TANAP-a birləşdiriləcək və ildə 10 milyard kubmetr həcmində Azərbaycan təbii qazının Avropa bazarına daşınması reallaşdırılacaq. Artıq TAP layihəsi üzrə mühəndis, təchizat və tikinti də daxil olmaqla ümumi iş həcminin 75 faizdən çoxu icra edilib. Boru kəmərinin funksionallığını təmin etmək üçün ötən ilin birinci yarısında Yunanıstan (Kiprdə) və Albaniyada (Fierdə) 2 kompressor stansiyasının inşasına başlanılıb və işlər qrafik üzrə davam etdirilir. Bu, bir daha təsdiq edir ki, TAP layihəsi də tezliklə tamamlanacaq və Avropanın 40 milyrad dollar sərmayə tələb edən ən böyük infrastruktur layihəsi — Cənub Qaz Dəhlizi tam şəkildə icra edilmiş olacaqdır. Bu tarixi nailiyyət imkan verəcək ki, Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə və Avropa bazarlarına ən qısa və təhlükəsiz yolla çatıdırılsın.

Cənub Qaz Dəhlizinin uğurla başa çatması bizim üçün yeni imkanlar, yeni üfüqlər açacaq, — deyən dövlətimizin başçısı cənab İlham Əliyev bildirib ki, biz bir çox ölkələrin bazarlarına öz resurslarımızla çıxacağıq: "Ondan sonra bunu nəzərə alaraq, biz o ölkələrdə yeni infrastruktur layihələri icra edə bilərik. Bu barədə danışıqlar gedir və əvvəlcədən bir şey demək istəmirəm. Amma hesab edirəm ki, biz sadəcə olaraq, digər ölkələrə qazı təchiz edən ölkə kimi yox, ondan sonra qaz təsərrüfatının idarə edilməsi ilə bağlı da məşğul olmaq istəyirik. Bu, səmərəliliyi və gəlirimizi daha da artıracaq və çalışacağımız ölkələrdə də yeni infrastruktur yaradılmasına gətirib çıxaracaq".

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**

Respublika.- 2018.-18 oktyabr.- S.1.